◆ Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri

# Azərbaycan MDB məkanında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə töhfəsini verir

## Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə keçirilən iclasında iştirak edib






**Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.**

Tədbirdə Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Müstəqil Dövlətlər Birliyinin (MDB) baş katibi Sergey Lebedev və Birliyin MDB İnsan hüquqları komissiyasının sədri, Rusiyanın insan hüquqları üzrə müvəkkili Tatyana Moskalkova çıxış ediblər.

Sonra tədbirin yekun sənədləri imzalanıb.

İclasda Tacikistan Prezidenti Emoməli Rəhmona "Humanitar əməkdaşlığın inkişafında xidmətlərə görə" medalı təqdim olunub.




